Qəhrəmanlarımızı tanıyaq





# Lələtəpədən başlayan qəhrəmanlıq hekayəsi

**Ona hələ 28 yaşı tamam olmamış Aprel döyüşlərinin qəhrəmanı deyirdilər. Amma o adına yazılan qəhrəmanlığı şərəfli zabit borcu hesab edərək bunu çox da şişirtməməyi xahiş etmişdi. 44 günlük Vətən müharibəsindən sonra isə rəsmən qəhrəmana çevrildi.**

**Söhbət Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il dekabrın 9-da imzaladığı sərəncamla "Vətən müharibəsi qəhrəmanı" kimi yüksək ada layiq görülmüş tank qoşunlarımızın şəhid mayoru Amid Rəbbil oğlu Heydərovdan gedir...**



Amid, valideyin sözünə etiraz etmədən tabe olmaq kimi özünəməxsus adət-ənənələri olan cənublu ailəsində böyüməsinə baxmayaraq, həm də zəmanəsinin yetişdirdiyi müstəqil bir gənc idi. Həyata öz baxışı, öz düşüncəsi vardı. Bütün Azərbaycan gəncləri kimi o da torpaqlarımızın işğal altında olması ilə barışmırdı. Amid hərbiçi olmaq, müharibə başlayarsa, öz komandirlik məharəti ilə azərbaycanlı hərbçilərin dünyada heç bir millətin hərbiçilərindən zəif olmadığını döyüşdə sübut etmək istəyirdi. Bu yolda həmyerlisi, əfsanəvi sərkərdə, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovu özünə kumir seçmiş, onun kimi tank qoşunlarının zabiti olmaq, daha sonra general zirvəsinə yüksəlmək arzusu ilə yaşayırdı...

- Ona mane ola bilməzdim, - deyə, doluxmuş gözləri ilə sanki oğlunu xəyallarında axtarırmış kimi, baxışlarını bir nöqtəyə zilləmiş Rəbbil kişi söhbətə başlayır. - Uşaq vaxtlarından elə hey "tankçı olacağam, ermənilərin başını əzəcəyəm", deyib inadından dönmürdü. General Həzi Aslanov haqqında filmə bəlkə on dəfələrlə baxmışdı. Ona necə mane ola bilərdim? Şərəfli bir peşəni seçmişdi, Vətəni qoruyacaqdı. Mən xeyir-dua verdim, anası da etiraz etmədi...

Beləliklə, 1988-ci il mayın 20-də Lerik şəhərində anadan olan Amid Rəbbil oğlu Heydərov 2006-cı ildə orta təhsilini başa vurub Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. Zabit olmaq arzusu ilə yaşayan Amid peşəsinin sirlərinə yiyələnmək, hərb sənətinin incəliklərini öyrənmək üçün bütün imkanlarını səfərbər edir. Bilir ki, döyüşdə uğur qazanmaq üçün təlimdə, necə deyərlər tər tökmək lazımdır.

Amid kasıb, ancaq qürurunu və ləyaqətini əsla heç nəyə dəyişməyən əli qabarlı zəhmətkeş Rəbbil kişinin halal ocağında böyümüşdü. Atasının ona verdiyi ən qiymətli xəzinə də elə qürur, mərdlik, ləyaqət, qətiyyət və cəsarət idi. Atasının onu necə qürurla hərbi məktəbə yola saldığı bir an belə yaddaşından getmirdi. Hər dəfə o anları xatırlayanda, sanki atanın qayğılı, ancaq qürur dolu baxışları oğlunun üzərinə qoyduğu Vətənin borcundan ləyaqətlə, başıuca çıxmaq, qalib qayıtmaq məsuliyyətini daha da artırırdı.

Elə bu məsuliyyətlə də Amid 2010-cu ildə hərbi məktəbi əla qiymətlərlə başa vurur. Bundan sonra daha məsuliyyətli qərar qəbul etmək lazım gəlir. Amid tərəddüd etmədən cəbhə bölgəsini seçir və Ağcabədi rayonunda dislokasiya olunan tank taborunun tağım komandiri kimi hərbi xidmətə başlayır. Xidmət müddətində özünü nümunəvi zabit kimi göstərir. Rəhbərlik etdiyi tağım istər təlimlərdə, istərsə də nizam-intizamda hərbi hissədə daim rəhbər heyətin təşəkkürünə layiq görülür. Gündəlik həyatda gizir və əsgərlərlə nə qədər səmimi davransa da, təlimlərdə bir o qədər sərt və tələbkar olur. Onun komandiri olduğu tağımda xidmət etmiş əsgərlər deyirlər ki, Amid təlimlərdə heç vaxt güzəştə getməzdi və qarşıya qoyulan tapşırıqların dəqiqliklə yerinə yetirilməsini tələb edərdi. Həmişə deyərdi ki, biz müharibə şəraitində yaşayırıq, "hər an döyüşə hazır olmalıyıq. Döyüşdən qalib çıxmaq üçün təlimdə tər tökməli, can qoymaq lazımdır".

**Baş çavuş Xəyal Paşayev** adlı bir nəfər sosial şəbəkədə yazır: "Amid Heydərov bir ildən artıq bizim qərargah rəisimiz olub. O, mənə komandir yox, qardaş olub. Ondan günlərlə danışsam qurtaran deyil".

**Ömər Məşədiyev** adlı döyüşçü yazır: "Amid komandir misilsiz bir insan idi. Onun kimi insanlar tək-tək dünyaya gəlir".

**Ehtiyatda olan Əsgər Gündüz Ağayev** yazır: "Leytenant Amid Heydərov zabit həyatına mənim də xidmət etdiyim hərbi hissədə başlamışdı. Bizim vətənpərvər əsgər kimi yetişməyimizdə çox böyük xidməti var. Öz xidməti ilə, Vətən sevgisi ilə hamıya nümunə idi".

Bilik və bacarığını tabeliyindəki heyətə səbrlə öyrətməkdən sanki zövq alan, Amid başa düşürdü ki, döyüş maşını naşı idarəçilərin ixtiyarına verilsə, düşmən tankı da, heyəti də məhv edər, döyüş tapşırığı isə yerinə yetirilməz.

Beləcə 6 il döyüş təlimlərində püxtələşən Amid səbirsizliklə ilk döyüşə atılacağı anı gözləyirdi.

Əslində Amid hansı missiyanı üzərinə götürdüyünü və bu missiyanın onun taleyində hansı nəticələrlə bitəcəyini də bu peşəni seçərkən götür-qoy etmişdi. Hər dəfə döyüş hazırlığı komandası alanda anası ilə son görüşünü xatırlayardı. Boynunu qucaqlayan anası ondan ayrılar-ayrılmaz üzünü arxaya çevirər, Rəbbil kişi görməsin deyə, əllərinin arxasıyla gözlərindən gilələnən yaşı silər, sonra qollarını göyə açıb oğluna və onun xidmət etdiyi Azərbaycan Ordusunun bütün əsgər və zabitlərinə dua edərdi…

İlk döyüş və ilk sınaq 2016-cı ildə Gülüş, yumor günü kimi qeyd edilən aprelin 1-dən 2-nə keçən gecə baş tutdu. Həmin gün bütün əsgər və gizir heyəti gənc baş leytenant Amid Heydərovun gözlərində bir ateş olduğunu söyləyirlər. Əsgərləri komandiri heç belə yüksək əhval-ruhiyyədə görməmişdilər. Tağım döyüş hazırlığı vəziyyətinə gətiriləndə baş leytenant Heydərov bildirdi ki, sahə minalandığı üçün irəlidə o, öz tankı ilə gedəcək. Qoy hamı onun ardınca hərəkət etsin. Mübarizə ruhu alovlanan Amidin tankı ilk əmri alan kimi nərildəyib irəli şığıdı.

Amansız döyüşlər gedirdi. Azərbaycan Ordu hissələrinin piyada qüvvələrini düşmənin aramsız atəşindən qorumaq üçün Amid 305 nömrəli tankı ilə irəli atılır. Erməni işğalçı qüvvələri starteji Lələtəpə yüksəkliyini müqavimətsiz tərk etmək istəmirdilər. Çünki bu yüksəklik növbəti döyüşlərdə Azərbaycan Ordusunun mövqe üstünlüyünə səbəb olacaqdı.

Ermənilərin əsas atəş nöqtəsi təqribən bir neçə saniyəlik Amidin diqqətlə müşahidə apardığı optik nişangahın hədəfinə düşür. İti zəka və dərin məntiqə malik komandir bir andaca qərar verir: "Atəş", - deyə Amid bütün gücü ilə hayqırır. Odsaçan mərmi bir anın içində qarşıdakı istehkamı göyə sovurur. Qarşı tərəfdən atəş səsi kəsilir. Amid yenidən "Tam sürətlə irəli", əmri verir. Bir neçə dəqiqədən sonra Amidin tankı artıq Lələtəpə yüksəkliyində nərildəyir. Sonra digər tanklar ona dəstək üçün bu yüksəkliyə qalxır. Düşmən əsgərləri Azərbaycan Ordusunun tanklarını qarşılarında görəndə gözlərinə inana bilmirlər...

Amidin bu qəhrəmanlığı diqqətdən yayınmır. 4 gün davam edən Aprel döyüşləri başa çatandan sonra Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə baş leytenant Amid Heydərova vaxtından əvvəl kapitan rütbəsi verilir. Lələtəpə döyüşü bu igid tank komandiri üçün Vətən müharibəsinin baş məşqi olur.

Vəziyyət sabitləşəndən sonra Amid ailəsinə baş çəkmək üçün doğma Lerikə qayıdır. Uşaqlıq dostları onu əsl qəhrəman kimi qarşılayırlar. Amma o, özünü qəhrəman kimi aparmır və deyir: "Bilirsiz, uşaqlar, bu nədir ki, əsl döyüşlərimiz hələ qabaqdadır. Bu döyüş sadəcə düşmənə bizim gücümüzü göstərdi. İnanın, Ali Baş Komandan bu gün əmr versə, onlar qarşımızda duruş gətirməz. Ən geci iki aya Yerevana gedib çıxarıq".

Aprel döyüşlərindən 4 il sonra Ali Baş Komandandan Amidin səbrsizliklə gözlədiyi bu əmr gəldi. Amid isə bu vaxt 4 ay idi ki, mayor rütbəsi alıb, artıq tabor komandiri vəzifəsinə təyin olunmuşdu.

**Ordubad rayonundan olan qazi baş leytenant Əli Əlisoy Amidi həmin gün belə xatırlayır:** "Tabor komandirimiz Amid döyüşdən bir gün əvvəl bizi başına topladı. Sanki son və vacib döyüşə hazırlaşırdı. Söhbət əsnasında birdən qayıdıb ki, gəlin halallaşaq. Dünyanın işini bilmək olmaz..." Əlini qəhər boğdu, bir anlıq susdu...

Amid atasına zəng vurmağı da unutmamışdı. Hücum başlamamışdan bir neçə saat əvvəl atası Rəbbil kişinin telefonuna zəng edir: "Ola bilsin bir müddət sizinlə danışa bilmədim. Biz azadlıq müharibəsinə başlayırıq. Narahat olmayın, çox çəkməz biz görüşərik," – deyə mayor Amid atasını arxayınlaşdırmağa çalışır. Sonra da utana-utana gül balaları Şəmsi və Səidi soruşur. "Uşaqlara yaxşı baxın, ata,"- deyib xudahafizləşir.

Bu telefon danışığından bir neçə saat sonra, sentyabrın 27-də sübh çağı Qarabağda yeri- göyü lərzəyə gətirən yüzlərlə top və minaatanın aramsız atəş səsləri Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmək üçün Vətən müharibəsinə başlamasını bəyan edir. Artilleriyanın aramsız atəş hazırlığından sonra döyüşə polad maşınlar – tanklar daxil olur. Onların ön sırasında 2016-cı il Aprel döyüşlərinin qəhrəmanlarından biri, bu müqəddəs döyüşü səbirsizliklə gözləyən tank taborunun komandiri mayor Amid Heydərov gedirdi.

Elə ilk gündən cəbhənin ən ağır hissəsində, Füzuli- Cəbrayıl rayonları istiqamətində döyüşlərə başlayır. Döyüş təcrübəsi ilə yanaşı, cəsarəti və mərdliyi ilə taborda əsgərdən zabitə hamının sevimlisi olan Amidin komandiri olduğu tank düşmənin uzun illər qurduğu istehkamlardan açılan atəş nöqtələrini susdurmaqla taborunun arxadan gələn tanklarına yol açırdı – azadlıq, qalibiyyət və qəhrəmanlıq yolu...

**Baş leytenant Əli Əlisoy komandirinin şücaətini xatırlayaraq deyir:** "Biz başa düşürdük ki, üzərimizə hansı vəzifəni götürmüşük. Komandir bunu tam aydın şəkildə bizə izah etmişdi. Bizi qarşıda çox ağır döyüş gözləyirdi. Düşmən bir neçə müdafiə xətti qurmuşdu. Bunları isə ilk növbədə biz tankçılar yarmalı idik. Komandirimizlə iki minalanmış müdafiə xəttini keçdik. Amid heç vaxt tabeçiliyində olanların arxasında getməzdi. Onun olduğu tank birinci döyüşə girirdi. Həmişə deyirdi ki, mən irəli yox "ardımca" komandası verməliyəm ki, siz də cəsarətlə gələsiniz".

Sağında, solunda partlayan top mərmilərinə məhəl qoymadan yüksək döyüş qabiliyyəti ilə manevr edən mayorun bu cəsarətli yürüşü düşməni öz istehkamlarını qoyub qaçmağa məcbur edir. Amidin də iştirak etdiyi ilk döyüşdə Vətənimizin bir neçə yaşayış məntəqəsi azad edilir.

Döyüşlərin ikinci günü – sentyabrın 28-də Amid düşmən istehkamlarını məhv etməyin Azərbaycan Ordusunun bu müharibədə çox vacib olan ilk hücumlarının uğur qazanmasının bütün gələcək döyüşlər üçün necə mühüm əhəmiyyət kəsb etdiyini yaxşı başa düşürdü. Bu dəqiqələrdə onu yalnız düşmənin canlı qüvvəsini və zirehli texnikasını məhv etmək, onların beton istehkamlarını dağıtmaq, döyüşçülərimizin daha az itkilərlə irəliləməsini təmin etmək düşündürürdü...

Komandirin göstərişi ilə sürətlə manevr edərək birbaşa top atəşinə tuş gəlməkdən yayınan Amidin tankı ard-arda atəş açmaqla düşmənin diqqətini özündən sonra gələn hərbi zirehli maşınlardan yayındıra bilirdi. Bəzən düşmən tərəfin atdığı mərmilər onun tankının lap yaxınlığında partlayırdı. Ancaq komandirin tankı buna məhəl qoymadan irəli gedir və işğalçıların üzbəüz atəş nöqtələrinə zərbələr endirir.

44 günlük müharibənin ilk günündə azad olunan sonuncu kəndi – Cəbrayılın Nuzigar kəndi uğrunda döyüşlər gedirdi. Döyüşdə taborun iki tankı vurulur. Bu komandir Amidi daha da qəzəbləndirir. And içir ki, onun tanklarını vuran atəş nöqtələrini nəyin bahasına olur-olsun susduracaq. Düşmən müdafiəsini yararaq xeyli irəli gedir. Arsenalında olan mərmilərin 40-nı da düşmən üzərinə yağdırır. Düşmənin bir ağır tankını məhv edir. Sursatı qurtardığı üçün geri qayıtmaq əmri verir. Aramsız od saçan Azərbaycan tankının susduğunu görən düşmən dərhal onu hədəfə alır. İkinci mərmidən sonra tank zədələnsə də hərəkətini davam etdirir. Üçüncü, zirehdələn mərmi ilə atəşdən sonra mayor Amid Heydərovun tankı alovlanıb meydanda qalır. Bütün heyət Vətən yolunda qəhrəmanlıqla şəhid olur.

Amid tankı ilə düşmənin müdafiə xəttinin dərinliklərinə getdiyindən onun və tank heyətinin nəşini bir neçə gün döyüş meydanından çıxartmaq mükün olmur. Ancaq qəhrəman ordumuzun hissələri çox tezliklə düşmənin bir neçə eşalondan ibarət müdafiə xəttini darmadağın edərək həmin istiqamətdə sürətlə irəliləməyə başlayırlar. Beləliklə mayor Amid Heydərov və onun qəhrəman tank heyətinin nəşləri döyüş meydanından çıxarılır. Bu döyüşdən sonra Azərbaycan ordusu sürətlə işğal altında olan qəsəbə və kəndlərimizi bir-birinin ardınca azad etməyə başlayır. Azərbaycanın bu zəfər yürüşünə yol açanlardan biri mayor Amid Heydərov isə artıq bu döyüşləri görmür…

2020-ci il oktyabrın 3-də mayor Amid Heydərovun cənazəsi böyük izdihamla doğulduğu Lerik rayonuna gətirilərək dəfn edilir. Bir qəhrəman Vətən oğlu nəsillərə nümunə olacaq şücaəti, qəhrəmanlığı, mərdliyi ilə adını Azərbaycan tarixinə yazdırır. Həmin gün bu qəhrəman mayoru təkcə Lerikdə ağlamırdılar. Onu tanıyan və şəhid olduğunu eşidən yüzlərlə azərbaycanlı gənc öz əfsanəvi komandirinin müqəddəs ruhuna üz tutub ürək sözlərini sosial şəbəkələrdə paylaşırdı.

**Əsgər Taleh Bağırov:** "Can komandir, yatdığın torpağa qurban olaram. Əsgərlərin sənin yoxluğunla barışa bilmir. Hamısının gözü yaşlı, qəlbi qisasla doludur. Az qalıb, bu torpaqlarda sonuncu erməni əsgərini məhv etməklə qisasını alacağıq".

**Ehtiyatda olan hərbi qulluqçu Nurlan Əliyev:** "Mayor Amidi Aprel döyüşlərindən tanıyıram. İstedadlı, mən deyərdim, son dərəcə qorxmaz və cəsarətli tank komandiri idi. Hələ də onun bizdən belə tez ayrılmasına inana bilmirəm. Müqəddəs ruhu qarşısında baş əyirəm".

**Digər bir sosial şəbəkə istifadəçisi isə yazır:** "Qəhrəman şəhidimiz Amidin kimliyini bacım oğlundan duydum. Təsadüfən evlərinə getmişdim. Qəfil qonşu otaqda əsgərlikdən iki il əvvəl gəlmiş bacım oğlunun hönkürtüsünü eşitdim. Daxil olanda gözlərimə inana bilmədim. Əsgərlikdə tank komandiri Amidlə bir yerdə çəkdirdikləri şəkilləri qarşısına töküb hönkür-hönkür ağlayırdı. Özümü saxlaya bilmədim. Belə qəhrəmanların adı əbədiyyətə qədər millətimizin and kitabında yer almalıdır…"

Nəsillərə əmanət olacaq o, əbədiyyət kitabı artıq yazılıb. Onu 44 günlük Vətən müharibəsində şanlı ordumuzun Ali Baş Komandanı, Azərbaycan Prezidenti İlham Əliyev öz müstəsna xidmətləri, müdrik qərarları və qətiyyəti ilə yazıb. O kitabda əsas səhifələrdə yer alacaq Ali Baş Komandanın, Prezidentin imzaladığı sərəncamda yüzlərlə qəhrəmanımızla yanaşı, mayor Amid Heydərovun da adı var. Bu ada isə ölümündən sonra Azərbaycan Respublikasının "Vətən müharibəsi qəhrəmanı" kimi yüksək və şərəfli bir ad da əlavə edilib. Dövlət başçısının növbəti sərəncamı ilə Amidin bu yüksək adına "Vətən uğrunda" medalı da əlavə edilib.

Bu gün bütün Azərbaycan xalqı qəti əmindir ki, illər, on illər, əsrlər gəlib keçəcək, lakin onun tarixinə Zəfər gününü qanıyla, canıyla yazan Amid kimi yüzlərlə mərd, qəhrəman, cəsarətli oğullarımız heç zaman unudulmayacaq.

*İlqar RÜSTƏMOV,*
*"Xalq qəzeti"*